# Yoluxucu xəstəliklər

SNSKİ.AZ ODƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

1). Qəbula gələn dörd yaşlı qızda üç gündür ki, hərarət, qarında ağrı və qanlı ishal baş verir. Atası qeyd edir ki, o, simptomları başlamazdan bir neçə gün əvvəl donuz sosiskaları yeyib və bunun qastroenteritə səbəb olduğunu düşünür: Onda aşağıdakılar müşahidə olunur: Temperatur 38.3°C, Ürək ritmi 100 vurğu/dəq, Arterial təzyiq 106/65 mm c.st., Tənəffüs hərəkətlərinin sayı 18 nəfəsalma/dəqiqə. Onda yüngül generalizə olunmuş abdominal ağrı var, lakin əzələ defansı yoxdur. Siz rutin qan, hemokultura və nəcis kulturalarını laboratoriyaya göndərirsiniz. Mikrobiologiya laboratoriyası daha sonra sizlə əlaqə saxlayaraq qeyd edir ki, nəcis kulturası Yersinia enterocolitica yetişdirmişdir.
Bu xəstədə Yersinia infeksiyasının aşağıdakı növlərindən hansı var?

a) Taunun bubon forması
b) Taun faringiti
c) Taunun ağciyər forması
d) Taunun septisemik forması
e) Yersinioz

2). Aşağıdakılardan hansı xəstənin yersinioz infeksiyası qazanmaq riskini daha çox artırır?

a) Birə dişləmələri
b) Yoluxmuş siçovullarla təmas
c) Yoluxmuş əhliləşdirilmiş heyvanlarla təmas
d) Yersinioza yoluxmuş şəxslə yaxın təmas
e) Çiy donuz ətinin istehlakı

3). 21 yaşlı qadın üç günlük qızdırma və baş ağrısı şikayəti ilə həkimə müraciət edir. O baş agrısını göz almacıqlarının hərəkəti ilə olan pis retro-orbital ağrı olaraq təsvir edir. O yenicə Maliyə səyahətdən qayıdıb. Müayinə zamanı onun qızdırmalı və ümumi hiperemiya və bütün bədəni boyunca qızılcanı xatırladan səpgilər ilə susuzlamış halda olduğu izlənilib. Onun qan analizlərində zəif trombositopeniya və neytropeniya aşkarlanıb. Bunlardan hansı diaqnoza daha çox uyğun gəlir?

a) Denge qızdırması
b) Epidemik səpgili yatalaq
c) Leptospiroz
d) Malyariya
e) Qarın yatalağı

4). Bunlardan hansı Tsutsuqamuşi yatalağı diaqnozunu təsdiqləmək üçün daha çox istifadə olunur?

a) Qanın ümumi analizi (QÜA)
b) C-reaktiv zülal
c) Hemokultura
d) Seroloji müayinə
e) Zərdab PZR (polimeraz zəncirvari reaksiyası)

5).Siz həyat yoldaşına yeni xroniki hepatit C diaqnozu müəyyən edilmiş 38 yaşlı qadının analiz nəticələri ilə tanış olursunuz. Nəticələr onu göstərir ki, onda anti-HCV anticisimləri vardır və HCV RNT mənfidir.

Aşağıdakı mülahizələrdən hansı doğrudur?

a) Xəstədə xroniki hepatit C infeksiyası vardır, çünki onda müsbət anti-HCV anticisim və mənfi HCV RNT test nəticələri vardır
b) Anti-HCV anticisimlərinin mövcudluğu xəstənin hepatit C-yə qarşı immunitetinin olduğunu göstərir.
c) Mənfi HCV RNT sınağı o deməkdir ki, xəstə əvvəllər infeksiyaya yoluxub, lakin indi virus orqanizmdən kənarlaşıb.
d) Onda heç vaxt Hepatit C olmayıb.
e) Onda kəskin C hepatiti var

6). Hepatit C-nin müalicəsi haqqında aşağıdakı mülahizələrdən hansı doğrudur?

a) Hepatit C-nin müalicəsi yoxdur. Cari müalicələr yalnız virusun replikasiyasını ləngidə bilər
b) Virus əleyhinə müalicə kursları təxminən 8-24 həftə davam edir
c) Venadaxili narkotik preparatlardan davamlı istifadə virus əleyhinə terapiya üçün əks-göstərişdir
d) Əgər virusdan öz başına təmizlənmə baş verərsə, virus əleyhinə terapiya zəruridir.
e) Sofosbuvir preparatı əks- göstərişdir.

7). 54 yaşlı kişi qızdırma və ümumi əzginlik şikayətləri ilə müraciət edir. Xəstə həmçinin bir tərəfdə gözün qaşınması və qızartısından və qulağına yaxın şişdən şikayətlənir. Onun keçmiş anamnezində hər hansı ciddi xəstəliyi yoxdur. Sosial anamnezi alınarkən, müntəzəm olaraq yaxınlıqdakı meşədə dovşan ovuna çıxdığını və ovladığı dovşanları özünün soyduğunu bildirir. Onun heç bir ev heyvanı yoxdur, evində heyvan saxlayan heç bir dostugilə qonaq getmədiyini bildirir və yaxın vaxtlarda heç bir heyvan və ya həşərat tərəfindən dişlənmədiyini və cırmaqlanmadığını qeyd edir. Müayinə zamanı, onda şişkin konyunktivit ilə müşayiət olunan sol gözün iltihablanması müşahidə olunur. Onda həmçinin palpasiya olunan, qeyri-sabit, qulaqönü limfa düyünü də vardır.
Aşağıda qeyd olunanlar hansı diaqnozu ən çox ehtimal etməyə əsas verir?
a) Bartonellyoz
b) İnfeksion mononukleoz
c) Taun
d) Toksoplazmoz
e) Tulyaremiya

8). Hamiləliyinin üçüncü trimestrində olan 25 yaşlı qadın qızdırma, başağrı və mialgiya şikayətləri ilə sizə müraciət edir. Onun keçmiş anamnezində hər hansı ciddi xəstəliyi yoxdur. Qadın evində üç pişik saxlayır. Anamnez zamanı, onda nitqin dolaşmasını müəyyən edirsiniz. Müayinələr zamanı xəstədə generalizə olunmuş limfadenopatiya və sağ gözdə görmə itiliyinin azalması müşahidə olunur.
Aşağıdakılardan hansı ən çox ehtimal olunan diaqnozdur?

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

a) Bartonellyoz
b) İnfeksion mononukleoz
c) Taun
d) Toksoplazmoz
e) Tulyaremiya

9). Ehtimal edilən xəstəlik hadisəsinə görə empirik müalicənin qəbulundan sonra sağalma mərhələsində olan xəstədə tulyaremiya hadisəsinin təsdiqlənməsi üçün aşağıdakı testlərdən hansı daha çox istifadə olunur?

a) Qan əkmələri
b) Bəlğəm əkmələri
c) Yara yaxmaları
d) Seroloji müayinə
e) Biopsiya

10). 26 yaşlı kişi 24 yaşlı həyat yoldaşı ilə Şri-Lankaya turist səyahətinə getməyi planlaşdırır. Onlar ucqar ərazidə iki həftə vaxt keçirməyi planlaşdırırlar. Onlar səyahətçilərdə ishal xəstəliyinin inkişaf edə bilməsinə görə narahatdırlar, çünki onların üç dostu həmin ərazidən təzəlikcə qayıtmışdır və onlardan ikisində ishal qeyd edilmişdir.
Siz onlarda ishal əmələ gələ biləcəyi halda antibiotiklər ilə empirik özünüterapiya qəbul etməyi onlara məsləhət görməyi qərara alırsınız. Aşağıdakı antibiotiklərdən hansı birini təyin etməlisiniz?
a) Siprofloksasin
b) Azitromisin
c) Kotrimoksazol
d) Ampisilin
e) Flucloxacillin

11). Böyük bir şirkətin 50 yaşlı icraçı direktoru Uzaq Şərqdə yeddi günlük səyahətdədir. Bu gün onun səyahətinin ikinci günüdür və qızdırma və qarın nahiyəsində ağrı ilə müşayiət olunan altı ishal epizodu qeyd edilir. Siz bu insana ən effektiv olan nəyi məsləhət görməlisiniz?

a) Heç bir müalicə qəbul etməmək, lakin çoxlu maye qəbul etmək
b) Üçgünlük antibiotik kursu qəbul etmək
c) Loperamid və üçgünlük antibiotik kursu qəbul etmək
d) Normal yemək və içmək
e) O, xəstəxanaya yerləşdirilməlidir

12). 1-ci növ herpes simpleks virusu infeksiyası barədə aşağıdakılardan hansı düzgündür?

a) 1-ci növ herpes simpleks virusunun reaktivasiyası kliniki əlamətlərlə müşayiət edilə, lakin bəzən simptomsuz da keçə bilər.
b) 1-ci növ herpes simpleks virusunun reaktivasiyası gingivostomatit törədir
c) İnfeksiya birbaşa təmasla keçmir
d) Xəstəlik olmadığı təqdirdə virus tüpürcəkdən ifraz oluna bilməz.
e) Təkrarlanan xəstəlik nadir hallarda əsmə və yanma hissi ilə əlaqələndirilir.

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

13). Residivverən ağız boşluğudaxili 1-ci növ herpes simpleks virus infeksiyası barədə aşağıdakılardan hansı düzgündür?

a) Dildə böyük xoranın yaranması herpetik infeksiyanın ağız boşluğunda residivinin daxili təzahürüdür.
b) Dişlərin müalicəsi herpetik infeksiyanın residivi üçün meyillilik törədə bilər
c) Lezyonlar, adətən ciddi ağrılıdır
d) Lezyonlar ümumiyyətlə 15-20 gün davam edir
e)Lezyonlar ümumiyyətlə vermillion sərhəddən adətən çəkinirlər

14). 40 yaşlı kişinin dilində xroniki yara vardır. Müayinə zamanı kənarları nahamar və ətrafdan hündürə yüksəlmiş lövhəvari sahə aşkar edilir. Ehtimal olunan diaqnoz nədir?

a) Skvamoz hüceyrəli xərçəng
b) Bədxassəli melanoma
c) Kapoşi sarkoması
d) Vilson dəmrovu
e) Aphthous ulcerasiya

15). İİV serokonversiyası olan xəstələrdə, adətən, aşağıdakı səpkilərdən hansı müşahidə olunur?

a) Eritematoz səpki
b) Əllərdə çapığabənzər səpki
c) Makulo-papulyoz səpki
d) Ekzematoz yaralar
e) Psoriatik səpki

16). Aşağıdakılardan hansı vərəm üçün ən güclü risk amilidir?

a) Siqaretçəkmə
b) İİV infeksiyası
c) Acı bağırsaqda şuntlama əməliyyatı
d) Şəkərli diabet
e) Bronxial astma

17).Kontagioz molyusk barədə aşağıdakı ifadələrdən hansı düzgündür?

a) Sağlam immunitetli böyüklərdə yaralar, adətən, gövdə və üzdə yaranır.
b) Kontagioz molyusk diaqnozunu təsdiqləmək üçün biopsiya lazımdır.
c) Tipik yaralar sədəf rəngli, gümbəz formalı və mərkəzi çökək olan papulalar şəklindədir.
d) Kontagioz molyusk bakterial infeksiya tərəfindən törədilir
e) Kontagioz molyusk göbələk infeksiya tərəfindən törədilir

18).Birincili İİV infeksiyası haqqında aşağıdakı ifadələrin hansı düzgündür?

a) Birincili İİV infeksiyasının əlamətləri İİV serokonversiyası üçün spesifikdir

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

b) Birincili infeksiyanın tipik simptomlarına hərarət, yorğunluq, baş ağrıları və faringit daxildir.
c) Xəstələrin yarısı serokonversiya xəstəliyi keçirir
d) Yorğunluq nadir hallarda birincili HİV infeksiyası ilə əlaqələndirilir
e) Miyalgiya nadir hallarda birincili HİV infeksiyası ilə əlaqələndirilir

19). İİV infeksiyalı xəstə ayağının baş barmağında güclü ağrıdan şikayət edir. O, vərəmdən müalicə olunur. Aşağıdakı dərmanlardan hansı onun simptomlarına səbəb olmuşdur?

a) Pirazinamid
b) İzoniazid
c) Etambunol
d) Rifampisin
e) Kanamisin

20). 21 yaşlı adam iki gün davam edən kəskin ishal və qusma şikayəti ilə təcili yardım şöbəsinə müraciət edir. Onun başı gicəllənir, zəiflik hiss edir və son 24 saat ərzində sidiyə çıxmamışdır. Onun temperaturu 37.5ºC -dir və qarın boşluğu cüzi həssasdır. Onu necə sağaltmaq lazımdır?

a) Təlimatı vermək lazımdır ki, çoxlu maye qəbul etsin və 24 saat ərzində yaxşılaşmadığı halda geri qayıtsın
b) Dərhal fizioloji məhlulun provokasiya dozasını verin və növbəti 12 saat ərzində qan təzyiqi, nəbzi və saat hesabı sidiyəçıxmaya nəzarət etməklə venadaxili regidratasiya terapiyası əlavə edin
c) Peroral amoksillin və peroral maye dərmanlarla müalicə olunmalıdır
d) Peroral probiotiklərin təyinatına başlayın
e) Onu sakitləşdirərək buraxın

21). Bir həftəsonu ərzində eyni ibtidai məktəbdən kəskin qarın ağrısı və qanlı ishal şikayəti ilə üç uşaq qəbul edilmişdir. Başqa uşaqlarda heç bir simptom yoxdur. Qan yaxması hemolizi aşkar edib. Sidik test-çubuğu proteinuriya və hematuriya aşkar edib. Siz düşünürsünüz ki, uşaqlarda hemolitik uremik sindrom var. Növbəti fikirlərdən hansı doğrudur?

a) Bu vəziyyətdə sağalma ehtimalı demək olar ki, yoxdur və bu
b) Bu alovlanma zamanı hemolitik uremik sindromun yüksək görülmə halı səciyyəvidir.
c) Güman edilir ki, E coli O157 ilə yoluxmaya görədir.
d) Bu xəstələrə böyrək transplantasiyası lazımdır
e) Bu, çox ehtimal ki, Staphylococcus aureus yoluxması ilə bağlıdır

22). Pakistan səfərindən yenicə qayıtmış, ishal müşahidə edilən 24 yaşlı qadını qəbul edirsiniz. Təxminən iki həftə əvvəl Pakistanda olduğu zaman o, hərarət, başağrı və əzginlik hiss edərək özünü pis hiss etməyə başlayıb. İndi onun 38ºC hərarəti var, qarında uzun sürən ağrı olur və son günlər defekasiya zamanı duru nəcis müşahidə edir. Müayinə zamanı məlum oldu ki, sakit vəziyyətdə dəqiqədə 120 ürək döyüntüsü ilə taxikardiyası var və uzunsürən abdominal ağrılar səbəbindən xəstə görünür. Ən ehtimal edilən diaqnoz hansıdır?

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

a) Giardia intestinalisə yoluxma
b) Shigella flexneri ilə yoluxma
c) Cryptosporidium parvum ilə yoluxma
d) Salmonella typhi ilə yoluxma
e) Qıcıqlanmış bağırsaq sindromunun kəskinləşməsi

23). Aşağıda göstərilənlərdən hansı onurğa- beyin mayesində, adətən, neytrofillərin üstünlüyünə səbəb olur?

a) Enterovirus meningiti
b) SHV-1 meningiti
c) Pnevmokokk meningiti
d) Suçiçəyi meningiti
e) Parotit meningiti

24). Meningizm simptomları ilə təzahür olunan 39 yaşlı qadından əldə edilən bel punksiyasının nəticələrini nəzərdən keçirirsiniz. Xəstənin müşahidə və müayinə nəticələri norma daxilindədir. Onun Qlazqo-Koma Şkalası göstəricisi 15/15 təşkil edir. Onun qan testləri normaldır. Onurğa-beyin mayesi nəticələri aşağıdakı kimidir:

Leykositlərin sayı: 150 hüceyrə/mm3, 98% limfositlər
Qan: Onurğa-beyin mayesi qlükoza nisbəti: Normal
Zülal: 0.5 q/dl Siz bu zaman nə etməlisiniz?

a) Dərhal asiklovirin tətbiqinə başlayın
b) Dərhal antibiotiklərin tətbiqinə başlayın
c) Laboratoriyadan tələb edin ki, PZR-dən istifadə edərək, OBM-də enteroviruslar, SHV-1, SHV-2 və suçiçəyi virusuna görə test aparılsın
d) Bel punksiyasını təkrarlayın
e) Qanın ümumi analizini tələb etmək

25). 35 yaşlı kişi aseptik meningitə malikdir və onun OBM-də bütün adi PZR testlərinin nəticəsi mənfidir (SHV-1, SHV-2, suçiçəyi virusu və enterovirus). Siz bu zaman nə etməlisiniz?

a) İİV testini təklif edin

b) Bel punksiyasını təkrarlayın
c) Yanlış mənfi PZR-in mümkünlüyünü nəzərə alın
d) SHV üçün cinsiyyət orqanlarından yaxmalar götürün
e) Əlavə heç bir tələb yoxdur; siz sadəcə xəstəni inandırmalı və evə buraxmalısınız

26). Limfositar OBM, Qlazqo-Koma Şkalası göstəricisi 13 olan və anamnezində son vaxtlarda davranışında dəyişikliklər olan xəstə üçün hansı müalicə növünü tətbiq etməlisiniz?
a) Venadaxili antibiotiklər
b) Venadaxili asiklovir
c) Venadaxili retroviruslar əleyhinə dərmanlar

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

d) Simptomatik terapiya
e) Ağrıkəsici

27).Aşağıda göstərilənlərdən hansı virus meningitinin yayılmış ağırlaşmasıdır?

a) Təkrarlanan epizodlar
Xüsusilə SHV-2, lakin, həmçinin, digər virusların da meningitin təkrarlanan epizodlarını törətdiyi qeyd edilmişdir (Mollaret meningiti).
Baxmayaraq ki, virus meningiti, adətən, yüngül formalı, özbaşına sağalan xəstəlik kimi nəzərdə tutulur, virus meningitinin nəticəsi kimi əhəmiyyətli ağırlaşmaların baş verəcəyinə dair məlumatlar artmaqdadır. [ref-id = Schmidt type = reference ] [ref-id = Schmidt2 type = reference ] [ref-id = Sittinger type = reference ]Tədqiqatlarda şüurun müxtəlif təbəqələrində dəyişikliklərin olduğu qeyd edilmişdir; misal olaraq, yaddaş və diqqət.

b) İkincili bakterial meningit
c) Beyin absesi
d) Dağınıq skleroz
e) Parkinson xəstəliyi

28). Hemaqqlutinin qlikoproteinləri (H) və neyraminidaza fermentləri (N) qrip virusunun səthində aşkar edilir.
Bunlara əsasən, aşağıdakılardan hansı doğrudur?

a) Virus əleyhinə dərmanlar hemaqqlutininləri hədəf alır
b) Anticisim cavab reaksiyasını törətmək üçün qrip vaksinləri H və N komponentlərindən ibarətdir.
c) Qrip virusunun H və N komponentləri antigen cəhətdən stabildir
d) H antigenin 10 antigen növü var
e) N antigenin 5 antigen növü var

29). 2009-2010-cu illərin pandemik qripinə istinad edərək, aşağıdakı xəstə qruplarından hansı daha az dərəcədə yoluxmaya məruz qalmışdır?

a) 65 yaşından yuxarı şəxslər
b) Hamilə qadınlar
c) 65 yaşına qədər şəxslər
d) Fiziki kök olan şəxslər
e) 35 yaşına qədər şəxslər

30). Aşağıda təqdim olunan ssenarilərin hansında xəstə pandemiya zamanı qripə şübhəli hesab edilə bilər?

a) Öskürəyi olan 4 yaşlı oğlan uşağı
b) Öskürəyi və qızdırması olan 20 yaşlı kişi
c) Qızdırması olan 30 yaşlı hamilə qadın
d) Qızdırma, qusma və əzələ ağrılarıları olan 40 yaşlı kişi
e) Yuxarıda qeyd edilənlərin hamısı

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

31). 62 yaşlı fermer sizə hərarət, ürəkbulanma və qusma ilə müraciət edir. Həmçinin, boğaz ağrısı və quru öskürək müşahidə olunur, lakin burun tutulması və ya zökəm əlamətləri yoxdur. Qarayaranın ağciyər formasından şübhələnirsiniz.Törədicinin aşkar edilməsi üçün aşağıdakılardan hansı ən məqsədəuyğun müayinə üsuludur?

a) Hemokultura
b) Yaradan götürülmüş yaxmanın əkilməsi
c) Döş qəfəsinin rentgen müayinəsi
d) Bel punksiyası
e) Döş qəfəsinin kompüter tomografiyası

32). Anamnezində II tip şəkərli diabet və hipertoniya olan 54 yaşlı baytar getdikcə böyüyən qaşınan papula şikayəti ilə sizə müraciət edir. Yarada ağrı yoxdur, lakin mərkəzində quru qaysaq əmələ gəlməkdədir. Yenicə döş qəfəsi infeksiyası keçirmiş və peroral antibiotiklərlə müalicə olunmuşdur. Siz qarayaranın ağciyər formasından şübhələnirsiniz.
Anamnez məlumatlarına əsasən, aşağıdakılardan hansı qarayaranın inkişafı üçün ən yüksək risk törədən amili təşkil edir?

a) Baytar peşəsində çalışma
b) II tip şəkərli diabet
c) Hipertoniya
d) Yeni keçirilmiş döş qəfəsi infeksiyası
e) Astma

33). Bronxial astması və bağırsağın qıcıqlanma sindromu (BQS) olan 28 yaşlı kişidə yeni başlanan ürəkbulanma, qusma, hərarət və qarın ağrısı ilə sizə müraciət edir. Bu əlamətlər xəstənin adətən müşahidə etdiyi BQS əlamətlərindən xeyli intensivdir. Xəstə ailəsi ilə birlikdə çiy mal əti yemişdir və ailənin digər üzvləri də xəstədir. Hemokultura üçün material götürülür və Bacillus anthracis təsdiq olunur. Xəstəyə qarayaranın mədə-bağırsaq formasının olduğu haqda məlumat verdikdə, o uşaq vaxtı anasında qarayara diaqnozu qoyulmuş qara dəri zədəsinin olduğunu xatırladığını bildirir.
Aşağıdakılardan hansı xəstədə qarayaranın inkişaf etməsi üzrə ən əhəmiyyətli risk faktorudur?

a) Bronxial astma
b) Bağırsağın qıcıqlanma sindromu
c) Tam bişməmiş ətin daxilə qəbulu
d) Uşaq vaxtı qarayaraya yoluxma
e) Miqren

34). Aşağıdakılardan hansında xəstənin qarayaraya yoluxma riski daha yüksəkdir?

a) Qəssabxanada işləmə
b) Çiy və ya tam bişməmiş mal ətinin daxilə qəbulu
c) Qarayara xəstəsi ilə cinsi əlaqə
d) Çirklənmiş su mənbəyi
e) Siqaret çəkmək

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

35). Aşağıda qeyd olunanlardan hansı uşaqlarda botulizmin ən geniş yayılmış erkən əlamətidir?

a) Qəbizlik
b) Hipertoniya
c) Hərarət
d) Hiperrefleksiya
e) Petexial səpki

36). Botulizm inkişaf etdikcə,aşağıda qeyd olunmuşlardan hansı hərəkətliliyin itirilməsinin xarakteristik nümunəsini daha yaxşı təsvir edir?

a) Boynun, çiyinlərin, qol və sonradan ayaqları iradi əzələlərinə təsir edən enən simmetrik iflic
b) Əl və pəncələrin, sonra isə qol və ayaqların distal zəifliyi
c) Zəifliyin multifokal sahələri
d) Bir tərəfdə qol və ayağın qəfil zəifliyi
e) Aşağı ətrafların sensor nevropatiyası

37). Aşağıda qeyd olunan ərzaq məhsullarından hansı böyüklərdə qida mənşəli botulizmin ən çox ehtimal olunan səbəbidir?

a) Satışda olan konservləşdirilmiş ərzaq məhsulları
b) Evdə konservləşdirilmiş ərzaq məhsulları
c) Bal
d) Restoran yeməkləri
e) Təzə balıq

38). Aşağıda qeyd olunan pasiyent qruplarından hansı yara botulizmi ilə yoluxmaya daha çox məruz qala bilər?

a) İt sahibkarları
b) Fermerlər
c) İnyeksion narkotik istifadəçiləri
d) Bağbanlar
e) Baytarlar

39). 45 yaşlı kişi iki günlük qızdırma, titrətmə və tərləmə, başağrısı və əzələ ağrısı tarixçəsi ilə qəbulunuza gətirilir. O, təzəlikcə öz ailəsinə ucqar Racastan, Hindistanda baş çəkmişdir və bir həftə əvvəl geri qayıtmışdır. O, həkiminin məsləhəti ilə malyariya profilaktikası keçmişdir, lakin təkrarən ağcaqanad dişləməsinə məruz qalmışdır. Onun ailəsinin kiçik bir keçi sürüsü var və o, orada qaldığı müddətdə üzərindən bir neçə gənə təmizləməli olmuşdur.
Siz nəticə çıxarırsınız ki, diaqnoz bu mərhələdə lokal respirator infeksiyadır, lakin səyahət tarixçəsi onu bildirir ki, siz digər nadir ehtimalları da nəzərə almalısınız. Aşağıda verilmiş nadir ehtimallardan, verilmiş diaqnozlara əsasən hansı biri birinci inkar edilmək üçün ən vacibidir?

a) Denge qızdırması
b) Krım-Konqo hemorragik qızdırması

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

c) Malyariya
d) Qrip
e) Qarın yatalağı

40). Verilənlərdən hansı Krım-Konqo hemorragik qızdırmasının (KKHQ) yayılmasının ən çox rast gəlmə səbəbidir?

a) Virusa yoluxmuş şəxslə yaxın əlaqə
b) Tam bişmiş lakin sağlam olmayan ət yemək
c) Afrika iriqanadlıları ilə təmas
d) İnfeksiyanın endemik ərazilərində ağcaqanad dişləməsi
e) İnfeksiyanın endemik ərazilərində gənələrin sancmasına məruz qalmaq

41). KKHQ olan pasiyenti müalicə edərkən aşağıdakılardan hansı tibb işçisinin yoluxması riskini azaldır?

a) Müvafiq şəxsi mühafizə avadanlığından istifadə
b) Təcrid olunmuş pasiyentin otağına daxil olan tibb işçilərinin sayını məhdudlaşdırmaq
c) İti əşyalar üçün konteynerin bütün hallarda əlçatan olması
d) İntubasiya zamanı cərrahi üz maskası taxmaq
e) Biotəhlükəli tullantıların düzgün kənarlaşdırılması

42). 30 yaşlı kişi beş gündür ki qızdırma, başağrı və əzələ ağrısından əziyyət çəkir. Bu gün o aşkar etdi ki, bir gözünün sklerası qızarıb. O, yenicə Pakistandan ailəsinə baş çəkməkdən və Qurban bayramını qeyd etməkdən qayıdıb. Orada olduğu müddətdə onun ailəsi,qurban bayramında kəsmək üçün keçi alır. Siz, xəstəliyə nəzarət üzrə milli mərkəz ilə Krim-Konqo hemorragik qızdırmanın təyini üzrə məsləhət almaq üçün əlaqə saxlayırsınız. Onlar bildirir ki, əks transkripsiyalı polimeraz zəncirvari reaksiyası (ƏT-PZR) və antigen analizi ELISA hazırda mümkün deyil.
Verilmiş analizlərdən hansılarının verilməsi məsləhət görüilə bilər?

a) Qanın ümumi analizi
b) Qaraciyərin fəaliyyəti üzrə yoxlamalar
c) Virus üzrə əkilmə
d) Laxtalanma tədqiqatları
e) Spesifik zərdab immunoqlobini M (JgM)

43). 45 yaşlı kişi peroral antibiotiklər qəbul etməsinə baxmayaraq, dörd gündür ayağında yuxarı doğru yayılan pannikulitdən əziyyət çəkdiyini bildirir. O, venadaxili antibiotiklər verilmək üçün xəstəxanaya qəbul edilir, lakin burun/qoltuqaltı/qasıq nayihəsindən götürülən yaxma kulturaları MRSA üçün müsbət nəticə verir. Xəstəyə nəzarət edən zaman hansı minimal Fərdi Mühafizə Geyimlərini geyinməlisiniz? (aşağıdakılardan birini seçin)

a) Yalnız əlcək
b) Əlcək və önlük
c) Əlcək, önlük və üz maskası (məs. FFP3)
d) Əlcək, önlük, üz maskası və eynək

SNSK AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

e) Əlcəklər, önlük, üz maskası və göz qoruyucu

44). 58 yaşlı kişi xəstəxanaya qəbul edilir. Onda qripin fəsadlaşması nəticəsində pnevmoniyanın inkişaf etməsi şübhəsi vardır. Anamnezində xroniki, obstruktiv ağciyər xəstəliyi vardır, lakin bu il ona illik qrip peyvəndi vurulmayıb.
Xəstəyə qulluq edən zaman minimum hansı fərdi mühafizə geyimlərini geyinməlisiniz?

a) Yalnız əlcək
b) Əlcək və önlük
c) Əlcək, önlük və üz maskası (məs. FFP3)
d) Əlcək, önlük, üz maskası və eynək
e) Əlcəklər, önlük, üz maskası və göz qoruyucu

45). 36 yaşlı süd vəzisi xərçəngi olan xəstə metastaza görə kəskin bel ağrısından şikayət edərək xəstəxanaya qəbul edilib. Qan analizi onda ağır neytropeniyanın olmasını göstərir.
Bu xəstənin müalicəsi üçün, xəstəxananın hansı hissəsi ideal sayılır? (aşağıdakılardan birini seçin)

a) Ümumi terapiya şöbəsi
b) Normal ventilyasiyalı yan otaq
c) Mənfi təzyiqli ventilyasiyalı yan otaq
d) Müsbət təzyiqli ventilyasiyalı yan otaq
e) Ümumi cərrahiyyə şöbəsi

46). Kliniki şöbədə əllərinizin sabun və su ilə yuyulması üçün tövsiyə edilən minimum müddət nə qədərdir? (aşağıdakılardan birini seçin)

a) 10 saniyə
b) 10-20 saniyə
c) 20-30 saniyə
d) 30-40 saniyə
e) 40-60 saniyə

47). 25 yaşlı qadın təngnəfəslik, hərarət və mialgiyadan şikayət edir. Onun simtomları Şərqi Çindən evə qayıtdıqdan sonra başlamışdır. Şərqi Çində o toyuq fermasında işləyirdi. Toyuqların bir çoxu naməlum xəstəliyə tutulduğuna görə məhv edilmişdir.
Onunla səyahət edən və fermada bir yerdə işləyən dostunda oxşar simptomlar təzahür etmiş və onun da vəziyyəti pisləşmişdir. Onun keçmiş xəstəlik tarixçəsində hər hansı əhəmiyyətli bir xəstəlik yoxdur. O xəstəxanaya qəbul edilir və onun vəziyyəti kəskin respirator distress sindroma(RDS) keçərək pisləşir. Bakteria artımının müəyyən olunmasına dair qan və bəlğəm kulturası mənfidir.
Ən çox ehtimal olunan diaqnoz hansıdır?

a) Yüksək patogenik quş qripi (YPQQ)
b) Yaxın Şərq respirator sindromu (YŞRS)
c) Ağır kəskin respirator sindrom (AKRS)
d) Krım-Konqo hemorragik qızdırması

SNSK.AZ ÖDƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN

e) Vərəm

48). 82 yaşlı kişi hərarət, əzginlik və yorğunluq əlamətləri ilə xəstəxanaya müraciət edir. Onun həmçinin yaşıl/qəhvəyi bəlğəmlə müşayiət olunan öskürəyi var. O bu yaxınlarda xaricə getmədiyini bildirir. Müayinə zamanı onun tənəffüs hərəkətlərinin sayı dəqiqədə 22 təşkil edir və onun sol tərəfdə xırıltısı var.
Aşağıdakılardan hansı ən çox ehtimal olunan diaqnozdur?

a) Bakterial pnevmoniya
b) Yüksək patogenik quş qripi (YPQQ)
c) İnsanın paraqrip virusu (İPV) infeksiyası
d) Mövsümi qrip
e) Ağır kəskin respirator sindrom (AKRS)

49). 30 yaşlı qadın 2 günlük hərarət, öskürək, başağrısı və ümumi zəiflik anamnezi ilə xəstəxanaya müraciət edir. O, son zamanlarda bir neçə virus xəstəliyinə tutulduğunu deyir , lakin onların bu dərəcədə şiddətli olmadığını da bildirir. Onun keçmiş xəstəlik tarixçəsində hər hansı əhəmiyyətli xəstəlik olmamışdır. O, ofisdə oxşar simptomları olan və özlərini yaxşı hiss etməyən bir neçə nəfərin olduğunu deyir. Müayinə zamanı onda heç nə aşkar edilmir.
Aşağıda qeyd olunanlardan hansı ən çox ehtimal olunan diaqnozdur?

a) Bakterial pnevmoniya
b) Yüksək patogenik quş qripi (YPQQ)
c) Respirator sinsitial virus (RSV) infeksiyası
d) Mövsümi qrip
e) Ağır kəskin respirator sindrom (AKRS)

50). 69 yaşlı tibb bacısı iki gün davam edən hərarət, başağrısı, öskürək və mialgiya anamnezi ilə sizə müraciət edir. Onun keçmiş xəstəlik tarixçəsində depressiya, hipotireoz və qastro-ezofaqal reflyuks xəstəliyi var. İki həftə bundan öncə ona qrip vaksini vurulmuşdur. Müayinə zamanı onda heç bir şey tapılmamışdır. Bu yaxınlarda siz bir neçə mövsümi qrip xəstəliyi diaqnozunu qoymusunuz və bu halda da siz eyni diaqnozdan şübhələnirsiniz.

Xəstəlik tarixçəsindəki aşağıdakılardan hansı xəstə üçün mövsümi qripə yoluxma nöqteyi nəzərdən ən böyük risk faktorudur?

a) 69 yaşdan yuxarı yaş
b) Tibbi bacısı qismində işləmək
c) Depressiya
d) Hipotireoz
e) Qastro-ezofaqal reflyuks xəstəliyi

SNSK.AZ ODƏNİŞSİZ İSTİFADƏ ÜÇÜN